# Səməd Vurğunun ev-muzeyində Rəsul Həmzətov gecəsi



7 dekabr 2023-cü ildə Səməd Vurğunun ev-muzeyində Dağıstanın Xalq şairi Rəsul Həmzətovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Salam, əziz dostum" adlı ədəbi-bədii gecə keçirilib.

Gecədə "Günay" Uşaq Teatrının kollektivi, Rusiya səfirinin mədəniyyət işləri üzrə birinci müavini, Dağıstan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin əməkdaşları, muzey və media nümayəndələri iştirak ediblər. Çıxış edənlər Xalq Şairi Səməd Vurğunun və Rəsul Həmzətovun yaradıcılığından, onlar arasındakı sıx dostluq münasibətlərindən danışıblar. Hər iki ölməz şairin yaddaşlardan silinməyən xatirələri yad edilib.

Tədbirin bədii hissəsində "Günay" Uşaq Teatrının şagirdləri Rəsul Həmzətovun əsərləri əsasında "Səməd Vurğun və Azərbaycan", "Ana", "Vətən", "Məhəbbət" haqqında kompozisiyalar ilə çıxış ediblər, Rəsul Həmzətovun ömrünün son illərində yazdığı şeirləri səsləndiriblər. Tədbirdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri Rəsul Həmzətovun Səməd Vurğuna həsr etdiyi "Əziz dostum" adlı şeirinə musiqi ifa ediblər.